# Müdrik fikirləri

Şükür olsun allaha, yer üzündə mənim marallarımın hesabı üç yüz milyona çatıb. Gedərsən İrana, Hindistana, Türküstana, Ərəbistana, Buxaraya, Əfqanıstana, İrəvana, Naxçıvana, Qarabağa, Lənkərana, Salyana, Bakıya, Batuma, Dərbəndə, Dağıstana... hər yer mənim marallarım ilə doludur. Gözəl marallarım, göyçək marallarım. Keçəl marallarım, qotur, bitli marallarım. Başları qapazlı, üzləri tüpürcəkli marallarım.

***

"Cəhənnəm məktubları" əsərini yazmaqda məqsəd mövhümatın avam türk xalqının başında nə dərəcədə möhkəm bir mövqe tutmasını göstərmək idi.

***

Sən musiqiçisən, [Ə.Bədəlbəyli] ədəbiyyatı da yaxşı bilirsən. Məsləhət görərdim ki, poetik söz və musiqi problemi ilə məşğul olasan. Avropada bu mövzu çoxdan və dərindən işlənib, rus musiqişünasları da bu sahədə öz işlərini davam etdirirlər. Niyə Azərbaycanda belə bir mühüm məsələyə aid elmi əsərlərimiz olmasın. Mən cavan deyiləm - 63 yaşım var. Bu, elə bir vaxtdır ki, qəmli-qəmli düşünürsən: hələ görülməli nə qədər iş var?!

***

Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" məcmuəsi barədə dönə-dönə yazan Haqverdiyev Azərbaycan satirik ədəbiyyatında onların mövqeyini yüksək qiymətləndirirdi: "Hesabsız hədə kağızlarına, föhşlərə, həcvlərə, maddi və "mənəvi" vədlərə etina etməyərək öz tutduğu məqsəddən, məsləkdən bir qədər geri durmamaqla Mirzə Cəlil öz azacıq dostları ilə birlikdə axırda qalib gəlib həmişəlik bir ad və Azərbaycan ədəbiyyatında xüsusi bir cığır – "MollaNəsrəddin" dövrü qoya bildi.

***

Ədib satirik şair Ə.Qəmküsar barədə yazırdı: "... Gözəl natiq, şirin zəban, dərin fikirli, geniş məlumat sahibi Əliqulu Nəcəfzadəyə dəyən güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi. Ona mən "Molla Nəsrəddin" məcmuəsinin ürəyi adı qoymaqda səhv etmirəm və cürətlə də bu sözü deyirəm.